ABB
Azərbaycan Beynəlxalq Bankı

ARAŞDIRMA HESABATLARI

# Azərbaycan üzrə pərakəndə ticarət sektorunun təhlili: trendlər və nəticələr

Aprel 2024

# 2023-cü ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsi 59 mlrd. AZN olmuşdur.

## Pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu

- Ərzaq məhsulu
- Qeyri-ərzaq malları
- Tütün məmulatları
- Əczaçılıq məhsulları və tibbi ləvazimatlar
- İçkilər




## Ticarətin növləri üzrə pərakəndə ticarət dövriyyəsinin quruluşu




## Pərakəndə ticarət dövriyyəsinin coğrafi təsnifatı






2023-cü ildə Bakı şəhəri üzrə pərakəndə ticarət dövriyyəsi 35.6 mlrd. AZN olmuşdur ki, bu da ölkə üzrə ümumi pərakəndə ticarət dövriyyəsinin 60%-ni təşkil etmişdir.

## Ticarət növləri üzrə pərakəndə ticarət dövriyyəsinin quruluşu (mlrd. AZN)




**Ticarət müəssisələrinin pərakəndə ticarət dövriyyəsindəki payı 2018-ci ildə 16.8%-dən 2023-cü ildə 26.0%-ə yüksəlmişdir.**

### Bazar paylarının təsnifatı

| | 2018 | 2023 |
|---|---|---|
| Ticarət müəssisələri | 16.8% | 26.0% |
| Fərdi sahibkarlar | 52.9% | 52.2% |
| Məhsul bazarları və yarmarkalar | 30.3% | 21.9% |

*Orta illik artım

## Pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu (mlrd. AZN)




**Ərzaq məhsullarının pərakəndə ticarət dövriyyəsindəki payı 2018-ci ildə 45.7%-dən 2023-cü ildə 51.6%-ə qalxmışdır.**

## Bazar paylarının təsnifatı

| | 2018 | 2023 |
|---|---|---|
| Ərzaq məhsulları | 45.7% | 51.6% |
| Qeyri-ərzaq malları | 48.4% | 41.8% |
| Digər | 5.9% | 6.6% |

## 2018-2023-cü illər ərzində iqtisadi zonalar üzrə pərakəndə ticarət artımı statistikaları

**2018-2023-cü illər ərzində:**

**Əhali artımı üzrə:**
- Ölkə – 0.5%
- Abşeron-Xızı – 9.0%
- Bakı – 0.6%

**Adambaşına illik dövriyyə artımı :**
- Ölkə – 9.7%
- Abşeron-Xızı – 17.5%
- Bakı – 11.3%

**Adambaşına illik dövriyyə artımı:**
- Ölkə – 9.2%
- Qarabağ – 12.3%
- Bakı – 10.6%

**Adambaşına illik real dövriyyə artımı :**
- Ölkə – 3.4%
- Qarabağ – 6.4%
- Bakı – 4.8%




| | Azərbaycan | Abşeron-Xızı | Bakı | Dağlıq Şirvan | Gəncə Daşkəsən | Qarabağ | Qazax Tovuz | Quba Xaçmaz | Lənkəran Astara | Mərkəzi Aran | Mil-Muğan | Şəki-Zaqatala | Şirvan-Salyan |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin orta illik artımı | 0% | 9% | 1% | 0% | 0% | -4% | 0% | 0% | 0% | 0% | 1% | 0% | 0% |
| Orta illik dövriyyə artımı | 10% | 17% | 11% | 6% | 8% | 8% | 8% | 8% | 7% | 6% | 9% | 7% | 8% |
| Adambaşına orta illik perakəndə dövriyyə artımı | 9% | 8% | 11% | 6% | 8% | 12% | 8% | 8% | 7% | 6% | 8% | 7% | 8% |
| Adambaşına orta illik real perakəndə dövriyyə artımı | 3% | 2% | 5% | 0% | 3% | 6% | 3% | 2% | 1% | 0% | 3% | 1% | 2% |

2018-2023-cü illər ərzində iqtisadi zonalar üzrə pərakəndə ticarət artımı statistikaları

Pərakəndə ticarət dövriyyəsi – coğrafi təsnifat



## Pərakəndə ticarət dövriyyəsinin coğrafi təsnifatı (mlrd. AZN)




**2018-2023-cü illərdə Bakı şəhəri üzrə pərakəndə ticarət dövriyyəsinin artımı (11.3% CAGR*) regionlarla müqayisədə (7.5% CAGR*) daha sürətlidir. Buna görə də, ölkə üzrə ümumi pərakəndə ticarət dövriyyəsində Bakının payı 2018-ci ildə 56%-dən 2023-cü ildə 60%-ə qalxmışdır.**

## 2012-2023-cü illərdə iqtisadi rayonlar üzrə əhalinin artım səviyyəsi, %




*Orta illik artım

## 2012-2023-cü illərdə iqtisadi rayonlar üzrə əhalinin artım səviyyəsi




Bakıətrafı əraziləri əhatə edən Abşeron-Xızı iqtisadi rayonunu əhalinin artım sürətinə görə digər iqtisadi rayonları kəskin şəkildə üstələyir.
Bu trend pərakəndə ticarətlə məşğul olan müəssisələrin (o cümlədən, market şəbəkələrinin) məhz Abşeron-Xızı iqtisadi rayonunda genişlənmə imkanlarının olduğunu işarə edir.

## 2023-cü il üzrə iqtisadi rayonlarda urbanizasiya səviyyəsi




Urbanizasiya səviyyəsinə görə Bakı, Abşeron-Xızı və Gəncə-Daşkəsən iqtisadi rayonları 50%-dən böyük nəticə ilə ilk 3 pillədə yer almışdır. Şəhərlərdə əhalinin böyük əksəriyyətinin marketlərdə alış-veriş etdiyini nəzərə alsaq, bu hal market şəbəkələrinin məhz bu 3 iqtisadi rayonda yeni mağazalar açmalı olduğuna dəlalət edir.

# Diskleymer

Bu sənədin mülkiyyət hüquqları "ABB" ASC-yə aiddir və ümumi məlumat məqsədi ilə burada adı çəkilmiş müəssisələrin iştirakı olmadan, daxili araşdırma çərçivəsində "ABB" ASC tərəfindən hazırlanmışdır. Bu sənəd məzmunundan asılı olmayaraq, hər hansı investisiyaya dəvət, investisiya məsləhəti, hüquqi məsləhət və ya digər növ peşəkar məsləhət kimi qiymətləndirilməməlidir. Bu sənəd heç bir müqavilənin və ya əməliyyatın əsası olmayacaq və ya təqdim olunan məlumatla əlaqəli heç bir addımın tövsiyə edilməsi kimi dəyərləndirilməyəcək.

Bu sənəd heç bir bildiriş olmadan yoxlama, tamamlama və dəyişikliklərə məruz qala bilər və ABB bu sənəddə əhatə olunan heç bir məlumatın yenilənməsinə, aktiv saxlanmasına görə öhdəlik daşımır. Burada təqdim olunan fikirlər, proqnozlar və qiymətlər, üçüncü tərəf mənbələrdən əldə edilmiş məlumata əsaslanır və dəyişikliklərə məruz qalaraq bildirişsiz dəyişə bilər. Üçüncü tərəf nəşrləri, tədqiqatlar və sorğular, məlumatlarının güvənli mənbələrdən əldə edildiyini bildirir, lakin dəqiqlilik və ya tamamlıqla bağlı zəmanət verilmir. Beləliklə, bu sənəddə yerləşdirilmiş məlumatlara ağlabatan olmayan şəkildə əhəmiyyət verilməməlidir.

Bu sənədə yerləşdirilmiş məlumatların dəqiqliyinə əmin olmaq üçün bütün səylər göstərilsə də, ABB, direktorları, əməkdaşları, filialları, törəmələri, müşavirləri və agentləri təqdimat haqqında heç bir doğruluq, dəqiqlik, uyğunluq zəmanəti vermir. Bu məlumatlara əminlik və istifadəyə dair cavabdehlik biləvasitə sənədin istifadəçisi və ya oxucuya aiddir. Biz bu sənədin istifadəsi ilə əlaqədar olan və ya bu səbəbdən dolayı yolla yaranan, hər hansı itkilərə, zərərə və ya gəlirlərin itirilməsinə, əldən çıxmış faydaya görə heç bir məsuliyyət qəbul etmirik.

Bu sənəd gələcəyə dair proqnozlara əsaslanan ifadələr ehtiva edə bilər. Belə ifadələr bəzi təxminlərə və gözləntilərə əsaslansa da, faktiki nəticələr, performans və nailiyyətlər ifadə olunanlardan fərqlilik təşkil edə bilər. Biz bu sənədin elanından sonra meydana çıxan hadisə və ya halları əks etdirmək məqsədilə hər hansı bir proqnozu ictimai olaraq yeniləməyə və dəyişməyə dair heç bir öhdəlik qəbul etmirik. Üçüncü tərəf saytlarına verilən bağlantılar və istinadlar yerləşdirilməsi tövsiyə ehtiva etmir və orada göstərilən fikirlərin hər hansı şəkildə təsdiqini təmin etmir. Təmin olunan məlumatlara əsaslanaraq investisiya qərarları və ya tədbirlər görməzdən əvvəl professional məsləhətçi konsultasiya keçirməyi tövsiyə edirik. ABB tədqiqatda göstərilən şirkətlərlə birgə əməkdaşlıq edə bilər. Nəticədə, bu sənəddəki məlumatların obyektivliyinə təsir edə biləcək potensial maraqlar münaqişəsinin mümkünlüyünün fərqində olmalısınız.

Hər hansı bir məqsədlə bu sənədin bütün və ya hər hansı bir hissəsinin icazəsiz kopyalanması, paylanması, çap olunması, dərc edilməsi və ya yenidən ötürülməsi qadağandır.

**Əlaqədar şəxs:**

**Səbuhi Həmidli,**
**Risklərin idarə edilməsi departamentinin**
**Bazar risklərinin idarə edilməsi şöbəsinin müdiri**

**Nizami küç. 67,**
**AZ1005 Bakı, Azərbaycan**

**+99412 493 00 91 (dax.: 1416)**
**abb-research@abb-bank.az**

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

# Diqqətiniz üçün təşəkkürlər!

Aprel 2024